# Arazdan Turana



Bu günlərdə Abdulla Şaiqin mənzil-muzeyində ədibin həm doğum günü, həm də yeni nəşr olunmuş "Arazdan Turana" kitabının təqdim mərasimi keçirilmişdir.

Məclisdə Abdulla Şaiqin oğlu, akademik Kamal Talıbzadə çıxış edərək — "Arazdan Turana" şerlər toplusundakı milli zülmün, siyasi zorakılığın ifşasına həsr olunmuş şerlərindən söhbət açdı. Kitabın ərsəyə gəlməsində MEA-nın Əlyazmalar İnstitutunun direktoru M.Adilovun, filologiya elmləri namizədi R.Kərimovun, muzeyin baş elmi işçisi M.Əsədlinin xidmətlərini xatırladı.

Tədbirin bədii hissəsində Arzu Hacızadənin hazırladığı ədəbi-bədii gecə nümayiş etdirilmişdir. Tədbirdə filologiya elmləri namizədi Aybəniz Kəngərli, "Borçalı" qəzetinin baş redaktoru Azadə Taleh-Abbas qızı, sənətşünaslıq namizədi Minaxanım Əsədli, Əlyazmalar İnstitutunun müavini Paşa Kərimov, C.Məmmədquluzadə muzeyinin direktoru Pərixanım Mahmudova və başqaları çıxış edərək Abdulla Şaiqin yeni kitabının məziyyətlərindən danışmışlar.

**A.Hacızadə**